## Nar bağında keçirilən fitosanitar monitorinqlər

Şəki regional bölməsinin inzibati ərazi vahidinə daxil olan Şəki rayonunun, Turan qəsəbəsində yerləşən nar bağında həyata keçirilən monitorinqlər zamanı nar meyvəyeyəni və onun zədəsi, meyvə milçəyi, eyni zamanda meyvə çürüməsi, antraknoz, alternarioz, aspergillioz kimi xəstəliklərə sirayətlənmə aşkar edilib.

Monitorinq zamanı nar bağında həyata keçirilməli olan düzgün aqrotexniki qulluq qaydaları, bitki mühafizəsi və karantini tədbirləri haqqında bağ sahibinə zəruri göstərişlər verilib. Eyni zamanda müayinələrin aparılması üçün məhsullardan götürülən nümunələr Azərbaycan Qida Təhlükəsizliyi İnstitutunun müvafiq laboratoriyalarına təqdim olunub.